Azərbaycan milli məfkurəsinin ideya daşıyıcısı

O, "Bir kərə yüksələn bayraq bir daha enməz" demişdi. Bəli, bu fikrin müqəddəsliyinin, aliliyinin illər sonra, XXI əsrin əvvəllərində bir daha şahidi olduq. Xalq-dövlət birliyi azad, müstəqil Azərbaycan uğrunda üçrəngli, ay-ulduzlu bayrağımızı yüksəklərə qaldıraraq əbədi dalğalanmasını təmin etdi. Onun da amalı, istəyi və mübarizəsi məhz bu ali dəyərlər uğrunda idi.

Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından, milli istiqlal hərəkatının üzvlərindən biri olan Məhəmməd Əmin Axund Hacı Molla Ələkbər oğlu Rəsulzadə 1884-cü il yanvar ayının 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. İlk təhsilini Sultan Məcid Qənizadənin 2 saylı rus-tatar (rus-Azərbaycan) məktəbində aldıqdan sonra Bakı texniki məktəbini yarımçıq qoyaraq siyasi hərəkata qoşulmuşdur. Gənc yaşlarından inqilabı fəaliyyətə başlayan Rəsulzadə "Müsəlman Gənclik Təşkilatı" adlı gənc azərbaycanlılardan ibarət inqilabçılar dərnəyi yaratmışdır. "Şərqi-Rus" qəzetində "Öz müxbirlərimizdən. Bakı" adlı ilk məqaləsi dərc olunduqdan sonra "Həyat", "İrşad", "Tərəqqi" qəzetlərində mütəmadi olaraq çıxışlar etmiş, həmvətənlərini azadlıq, müstəqillik uğrunda mübariz olmağa səsləmişdir. 1904-cü ildə isə Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində "Müsəlman sosial-demokrat" "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir.

Bütün ömrünü Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə həsr edən Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal". Bu mənada onun mətbuatda ard-arda çap olunan məqalələri böyük maraq doğururdu. O, yazılarında xalqa söz, mətbuat, cəmiyyət və ittifaqlar yaratmaq azadlıqlarının verilməsi, vətəndaşların əmlakının və canlarının toxunulmazlığının təmin olunması tələbləri ilə çıxış edirdi. Rəsulzadənin mübarizə xəttinin əsas qollarından birini də xalqın maariflənməsi təşkil edirdi. Onun 1906-1907-ci illərdə "Təkamül" və digər qəzetlərdə dərc olunan millətlərə, tayfalara, siniflərə, insanlara hüquq bərabərliyi və azadlıq tələb edən yazıları ətrafında xeyli insanı birləşdirmişdir.

Xüsusilə 1905-1907-ci illərdən sonra Azərbaycanda yaranan milli oyanış hərəkatı, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Həsən bəy Zərdabi və başqalarının çar Rusiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizəsi və genişlənməkdə olan "türkləşmək, islamlaşmaq və müasirləşmək" məfkurəsi Rəsulzadənin də milli-siyasi görüşlərinin formalaşmasına güclü təsir göstərmişdir. 1908-1911-ci illərdə isə İran inqilabında, Cənubi Azərbaycanda milli-demokratik oyanışda fəal iştirak edərək, Səttarxan və Bağırxanla görüşlər keçirmişdir. Burada da mətbuatla sıx təmaslar qurmuş və yeni qəzetlərin nəşrinə nail olmuşdur. Tehranda Avropa tipli ilk gündəlik qəzet olan "İrane-nou"nu ("Yeni İran") dərc etmişdir. Həmçinin burada yaşadığı müddət ərzində İran Demokratik Partiyasını yaratmış və Mərkəzi Komitəsinin üzvü seçilmişdir. İranda inqilab yatırıldıqdan sonra isə Türkiyəyə getmiş və Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu kimi ziyalılarla "Türk ocağı" təşkilatına daxil olmuş, "Türk yurdu" jurnalında Cənubi Azərbaycan türklərinin milli-siyasi hüquqlarının müdafiəsi uğrunda məqalələrlə çıxış etmişdir.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv-ümumidən sonra Bakıya qayıtmış milli azadlıq mübarizəsində daha fəal iştirak edərək "Müsavat" partiyasına rəhbərlik etmiş, 1914-cü ildə "İqbal" qəzetinin baş redaktoru, 1915-ci ildə isə "Açıq söz" qəzetinin nəşrinə nail olmuşdur. Azərbaycan dilinin saflığı uğrunda mübarizəsini əks etdirən yazılarla "Dirilik" jurnalında çıxış etmişdir. 1917-ci ildə Rusiyada Fevral inqilabından sonra yeni yaradılacaq demokratik Rusiyada Azərbaycan xalqına "Milli-məhəlli muxtariyyət" verilməsi uğrunda mübarizə apararaq, Moskva qurultayında Qafqaz müsəlmanlarının mövqeyini çəkinmədən müdafiə etmişdir.

1918-ci ilin yanvarında Tiflisdə Zaqafqaziya Seymi yaradılmış və fevralın 23-də keçirilən ilk iclasında Məhəmməd Əmin Rəsulzadə Seymin müsəlman fraksiyasının ən çox üzvü olan "Müsəlman və demokratik bitərəflər qrupu"nun və fraksiyanın sədri seçilmişdi. Batum konfransında iştirak edən Məhəmməd Əmin Rəsulzadə gizli səsvermə nəticəsində Azərbaycan Milli Şurasının (parlamentinin) sədri seçilmişdir. Milli Şura Azərbaycanı müstəqil dövlət elan etmiş və M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri kimi xarici işlər naziri Məmməd Həsən Hacınski ilə birlikdə Osmanlı dövləti ilə Batum müqaviləsini imzalamışdır. 1918-ci ilin iyununda Azərbaycan Xalq Cümhuriyyətinin İstanbul beynəlxalq konfransına göndərilən səlahiyyətli nümayəndə heyətinə sədrlik edərək Azərbaycanın mənafeyini uğurla müdafiə etmiş, ölkədə hərbi işin təşkili, maliyyə problemi, ərazi məsələsi haqqında Türkiyə rəsmiləri ilə danışıqlar aparmış, xüsusən Bakı məsələsində çevik və prinsipial mövqe tutmuşdur. Elə həmin il noyabrın 16-da Azərbaycan Milli Şurasının fəaliyyəti bərpa olunduqdan sonra onun sədri kimi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin formalaşdırılmasında mühüm rol oynamışdır.

Dünyəvi, demokratik dövlət kimi tarixə düşən, İstiqlal Bəyannaməsinin elan olunması ilə yaranan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərərək xalqın qəlbində azadlıq və istiqlal duyğularını oyatmış, müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini yaşatmağa qadir olduğunu sübut etmişdi. Cümhuriyyətin süqutundan sonra Bakıda qalmağın mümkünsüzlüyünü anlayan Rəsulzadə yaxını Abbasqulu Kazımzadə ilə Lahıca yola düşmüşdür. Onu gözləyən təhlükəni hiss edərək 1920-ci il avqustun 25-də buradan ayrılarkən Qaraməryəm istiqamətində həbs olunmuşdur. Lakin onun Stalinlə olan şəxsi münasibətləri köməyinə çatmışdır. Belə ki, İosif Stalin hökumətə belə bir məktubla müraciət etmişdir: "RSFSR Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasının üzvü. 7/XI-1920. XI Ordunun Xüsusi şöbəsinin rəisinə. Xüsusi şöbədə həbsdə saxlanılan Məhəmməd Əmin Rəsulzadə və Abbasqulu Kazımzadəni azad olunmuş hesab edib, qatarla mənim sərəncamıma göndərin".

Həbsdən azad edilən Məhəmməd Əmin Rəsulzadə bir neçə ölkədə mühacirət həyatı yaşamışdır. İlk olaraq Moskvaya gedən Rəsulzadə bir müddət RSFSR Millətlər Komissarlığında çalışmış, oradan Peterburqa yola düşmüş, sonra isə Türkiyəyə köçmüşdü. 1922-ci ildən İstanbulda yerləşdikdən sonra xaricdə dağınıq halda fəaliyyət göstərən mühacirlər haqqında yazmışdır: "Bulunduğumuz mühacirət şərtləri daxilində Azərbaycan davası naminə birləşmək milli davanı yaşatmış və yaşadan fikir sistem və nümayəndələrinə hörmət etməklə olur. Bunun üçün hər türlü kiçik hesablardan və hisslərdən sıyrılaraq fikrə önəm vermək lazımdır".

M.Ə.Rəsulzadənin istiqlal tariximizdəki ən böyük xidmətlərindən biri də Azərbaycanın azadlığı, müstəqilliyi mübarizəsini elmi və sistemli şəkildə aparan mətbuat orqanlarını yaratmasıdır. Mühacirət mətbuatının əsasını qoyan Rəsulzadə 1923-cü il sentyabrın 26-da "Yeni Qafqasiya" jurnalının nəşrinə başlamışdır. 1927-ci ildə Türkiyə hökuməti jurnalın nəşrini qadağan edir. 1928-ci ildə isə böyük mücadilələr göstərən Rəsulzadə "Azəri Türk" jurnalının nəşrinə nail olmuşdur. Ömrünün sonuna kimi Türkiyədə yaşayan Məhəmməd Əmin Rəsulzadə bir sıra mətbu orqanlarla əməkdaşlıq etmiş və xeyli sayda qəzet və jurnalların nəşrinin təşəbbüskarı olmuşdur.

Ankara Universitetinin tibb fakültəsinin klinikasında şəkər xəstəliyindən müalicə alan Məhəmməd Əmin Rəsulzadə 1955-ci il martın 6-da ölüm ayağında üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan" deyərək əbədiyyətə qovuşmuşdur. Məhəmməd Əmin Rəsulzadə Ankara, Esri məzarlığında dəfn olunub.

Ramidə YAQUBQIZI,
"Respublika".